# “Atatürkün fikir və düşüncələri”



Böyük Atatürkün fikir və düşüncələri həmişə Türkiyəni, türk xalqını sevənlərin maraq və diqqətini cəlb etmişdir. Tanınmış şərqşünas alim Allahşükür Qurbanov Türkiyə Cümhuriyyətinin yaradıcısı Mustafa Kamal Atatürkün mənəvi aləmini, mübarizəsini və ideyalarını əks etdirən tarixi abidənin şərəfli səhifələrini ön sözlə oxuculara təqdim edir.

**“Respublika”.**

*Atatürk Türkiyə tarixində ümmətdən millət yaradan müstəsna şəxsiyyətdir. O, türk millətçiliyinin, türk rəşadət və qəhrəmanlığının, türk siyasi, diplomatik və hərbi düşüncəsinin simvoludur. Mustafa Kamal parçalanmış, əraziləri əlindən alınmış, tarix səhnəsindən silinməkdə olan Osmanlı imperiyasının dağıntıları üzərində Atatürk prinsipləri adlanan prinsiplər—cümhuriyyətçilik, xalqçılıq, dövlətçilik, dünyəvilik və inqilabçılıq prinsipləri əsasında Türkiyə Cümhuriyyəti dövlətini yaratmaq, ölməkdə olan türk ruhuna yenidən can verməklə şərəfli türk tarixini və qəhrəman türk millətini təhqirdən və tarixi ləkədən xilas etmişdir. O, türk millətinin milli azadlıq uğrunda mübarizəsinin ideologiyasının, taktikasının, türk cəmiyyətinin siyasi, ideoloji, sosial əsaslarının, Türk Cümhuriyyətinin mənəvi-əxlaqi normalarının ilk müəllifidir. Deyildiyi kimi, “Günəşlə yanaşı duran bir vicdan” ifadəsi sanki Atatürkün boyuna biçilmişdir. Atatürkdən tarixə çox zəngin düşüncə irsi qalmışdır. Professor Utkan Kocatürkün çap etdirdiyi “Atatürkün fikir və düşüncələri” kitabı bu irsin cüzi bir hissəsini əhatə edir. Kitaba daxil olan seçmələr Atatürkün mənəvi aləminin ayrı-ayrı nurlu şəfəqləridir.*

***(əvvəli 2, 4 və 15 avqust tarixli saylarımızda)***

Böyük millətimizin öz həyatının gedişatında yaratdığı bu dəyişikliklər hər hansı bir üsyandan daha yüksək olan əzəmətli inqilablardandır.

Türkiyənin hər bucağında baş verən üsyan və inqilab əsl Türkiyəyə qovuşmaq mübarizəsi olmuşdur.

İstiqlal savaşı və türk inqilabı həmləsində və mərhələsində millətimizin yüksək siyasi və mədəni səciyyəsilə ölkə daxilindəki şüurlu birliyə əsaslandığı üçün uğur qazanmışdır.

Türk inqilabı qurucudur. Türk inqilabı yüksək bir bəşəri ideal ilə birləşmiş vətənpərvərlik əsəridir...

Etdiyimiz və etməkdə olduğumuz inqilabların qayəsi Türkiyə Cümhuriyyəti xalqını tamamilə müasir və bütün məna və forması ilə mədəni bir cəmiyyət səviyyəsinə çatdırmaqdır. Bu həqiqəti qəbul edə bilməyən zehniyyətləri darmadağın etmək zəruridir...

Uçurumun kənarında dağılmış bir ölkə, müxtəlif düşmənlərlə qanlı savaşlar...

Bundan sonra isə daxildə və xaricdə ehtiramla qəbul edilən, yeniləşən, yeni cəmiyyət, yeni dövlət və bütün bu illərdə uğur qazanmaq üçün arasıkəsilməz yeni inqilablar. Bax, Türk ümumi inqilabını qısa şəkildə belə ifadə etmək olar...

Mədəni və sosial sahədə uğurla gördüyümüz işlər Türkiyə Cümhuriyyətinin beynəlxalq simasını tam əlamətlərilə ortaya çıxarmışdır. Yeni əlifbası, milli tarixi, ana dili, elm, musiqi və texniki qurumları, bərabərhüquqlu qadın və kişiləri ilə modern Türk Cümhuriyyəti bu son illərin məhsuludur...

İnqilabi hərəkatda diqqət ediləcək nöqtə insan topluluqlarının fəaliyyətlərinə və fikirlərinə diaqnoz qoyduqdan sonra onlara yenilikləri qəbul etdirə bilməkdir.

İnqilab günəş qədər parlaq, günəş qədər isti və günəş qədər uzaqdır. İstiqamətimi daima o günəşə baxaraq müəyyən edirəm və beləcə irəliləyirəm, irəliləyirəm, istilik irəliləməyimə uyğun olduğu qədər irəliləməyə davam edirəm. Təkrar irəliləməyə davam etmək üzrə dayanıram, təkrar o günəşə baxaraq istiqamət alıram...

Millətin ayıq-sayıqlığı irəliləmək və inkişaf etmək istedadına güvənərək, millətin əzmkarlığına əsla şübhə etməyərək Cümhuriyyət üçün lazım olan hər şeyi edəcəyik. Qarşımızda bir çox çətinliklərin və maneələrin olduğunu bilirik. Bunların hamısını öyrənərək əzmkarlıq və inamla və millət sevgisinin sarsılmaz gücü ilə hamısını həll edəcəyik.

Elə bir millət sevgisi ki, o sevgi hər şeyə rəğmən, qəlbimizdə sönməz bir güc, dözümlülük və ataş qaynağıdır.

Türkiyədə doğan inqilab günəşi yüksələrək hərarətini ətrafa yaydıqca türk millətinin qəlbi bütün dünyanı böyük və təqdirəlayiq işlərinə qarşı isti bir sevgilə dolmuş, inkişafın bütün prinsiplərini mənimsəmişdir.

Biz böyük bir inqilab etdik. Ölkəni bir çağdan alıb yeni bir çağa gətirdik. Bir çox köhnə təsisatları dağıtdıq. Bu dağılan təsisatların çoxlu tərəfdarları vardır. Onların fürsət gözlədiklərini unutmamalıyıq. Ən qabaqcıl demokratik ölkələrdə belə quruluşu qorumaq üçün sərt tədbirlərə müraciət edilmişdir. Bizim isə inqilabı qorumaq üçün lazım olan tədbirlərə daha çox ehtiyacımız var...

Fransa inqilabı ancaq yüz ilə öz məqsədinə nail olmuşdur. Bizim inqilabımızın isə cəmi üç yaşı var. Heç kim iddia edə bilməz ki, bizim inqilabımız da bir müqavimətə, bir irticaçı hərəkətə məruz qalmaz. Ancaq bu üç il ərzində axıtdığımız qanların daha da artmaması üçün baş verəcək irticaçı hərəkətləri baş verdiyi yerlərdə boğmağa çalışmalıyıq.

Həyatın fəlsəfi, tarixin qəribə təzahürlərindən biri də budur ki, hər yaxşı, hər gözəl, hər yararlı işin qarşısında onu məhv etmək istəyən bir qüvvə ortaya çıxır. Bizim dildə buna “irtica” deyirlər. Yaxşı bir iş gördüyünüz zaman bilin ki, bu yaxşı işi yox etmək üçün qarşınıza müxtəlif mürtəce bir qüvvə çıxacaqdır. Buna görə o işi görmədən əvvəl ona qarşı çıxacaq qüvvənin məhv edilməsi üçün tədbirlər görməyimiz lazımdır.

Bütün millətimiz əmin olsun ki, bugünkü inqilabı edənlər və bu inqilabı başa çatdırmağa qərar verənlər qarşılarına çıxacaq mənfi gücləri onların ortaya çıxdığı nöqtədə əzə bilmək gücünə, qabiliyyətinə, tədbirinə malikdir. Bu səbəbdən də qətiyyətlə bəyan edirəm ki, millətin hakimiyyəti əbədidir. Onun qarşısını ala biləcək və ona zərər verə biləcək qüvvə yoxdur və ola da bilməz!

Unutmaq olmaz ki, millətin suverenliyini bir şəxsin, yaxud müəyyən şəxslərin əlində olmasından mənfəət uman məlumatsız və ehtiyatsız insanlar vardır. Hökmdarlar özlərini fantaziyaya istinad edən bir bir qüvvənin təmsilçisi kimi təqdim edərlər və bundan zövq alarlar. Ancaq onların ətrafındakı mənfəət düşkünləri buna dini don geydirərək bütün milləti aldatmağa, onları xətalı yola sövq etməyə çalışarlar. Necə ki, indiyə qədər belə etmişlər. Nəhayət millətin qulağı bu cəh-cəhlərlə dolar və o təbliğatları dinin tələbi və həqiqət kimi qəbul edər. Belə hərəkət edənlər irticaçı, onların hərəkətləri isə irticadır. Yaxın tariximizdə bunun bir çox örnəyi vardır. Ancaq bütün dünya bunu qəbul etməlidir ki, millətimizi bu cür təbliğatlarla aldatmaq imkanı qalmamışdır. Fitva ilə, yaxud buna bənzər təbliğatlarla milləti irticaya sövq etmək istəyənlərin yeri zindan olacaqdır. Qətiyyətlə və qorxmadan söyləyirəm ki, milli suverenliyimizin hər zərrəsini bu və ya başqa şərtlərə bağlamaq istəyənlər ən qatı mürtəcelərdir. Belələrinə qarşı millətin görəcəyi iş onları parçalamaqdan ibarətdir...

## Hüquq inqilabı və ədalət anlayışı

Mühüm olan nöqtə ədalət anlayışımızı, ədalətlə bağlı qanunlarımızı, ədalət orqanlarımızı bizi indiyə qədər şüurlu və ya şüursuz olaraq öz təsiri altında saxlayan, əsrin tələblərinə uyğun olmayan bağlardan olduqca tez bir zamanda xilas olmaqdır. Millət hər bir mədəni ölkədə ədalətlə bağlı olan inkişafın öz ölkəsində də ehtiyaca uyğun şəkildə olmasını istəyir. Millət əsl ədaləti təmin edən qaydalar istəyir. Millətin arzu və istəklərinə tabe olaraq ədalətlə bağlı işlərimizdə hər cür təsirlərdən cəsarətlə imtina etmək və çoxsaylı dəyişikliklərə başlamaq işində əsla tərəddüd etməməliyik. Mədəni hüquqda, ailə hüququnda izləyəcəyimiz yol ancaq mədəniyyət yoludur. Hüquqda əsası olmayan uydurmalara bağlılıq millətləri oyanmağa qoymayan ən ağır bir kabusdur. Türk milləti öz üzərində belə bir ağırlığı istəməz.

Bizim millətimiz və hökumətimiz ədalətə bağlı düşüncəsində heç bir mədəni millətdən geri qalmır. Bəlkə də tarix bu məsələdə daha da yüksəkdə olmağımıza, şahidlik edir. Buna görə bizim də ədalətə bağlı qanunvericiliyimiz bütün mədəni millətlərin qüvvədə olan qanunlarından zəif olması doğru olmaz. Hökumətin vəzifəsi ölkədə qanunun aliliyini təmin etməkdən ibarətdir. Ədalət məsələsi çox mühüm məsələdir. Bu səbəbdən ədalət işlərilə bağlı siyasətimizi izah etməyi lazım bilirəm. Ədliyyə sahəsindəki siyasətimizdəki qayə hər şeydən əvvəl xalqı yormadan, uyğun bir yolla ədaləti izah etməkdir. İkincisi olaraq, cəmiyyətimizin bütün dünya ilə təması təbii və zəruri olduğu üçün ədalət səviyyəmizi bütün mədəni cəmiyyətlərin ədalət səviyyəsi dərəcəsini çatdırmağa məcburuq. Bu məqsədə nail olmaq üçün mövcud qanun-qaydalarımızı bu tələblər səviyyəsində düzəltməli və yeniləməliyik, yeniləyəcəyik də...

İnsanların əmin-amanlıq və vicdan azadlığı şəraitində çalışmağa ehtiyacları var. Bu isə cəmiyyəti idarə edən dövlət və hökumət işlərində ədalətin mütləq şəkildə hakim olması ilə mümkündür. Bunu ədliyyə orqanlarımız təmin etməlidir. Bir ölkədə ədalət olmasa, o ölkədə anarxiya vardır, o ölkədə hökumət yoxdur. Ədalət qanunlarla təmin edilir...

Müstəqilliyin təməl dirəyi olan ədalətin təmini işində bircə dənə də əcnəbi barmağının olmasına imkan verməyəcəyik. Bu işdə qərarımız qətidir. Fəqət, eyni zamanda, insafla, ağıl və məntiqlə və eyni qətiyyətlə qəbul etməyə məcburuq ki, qanun və hüquq sistemimiz pisdir. Onları əsaslı surətdə dəyişdirmək, yeni həyata və ehtiyaca uyğunlaşdırmaq lazımdır... Bizim qəbul edəcəyimiz qanunlar əsrin tələblərinə və millətin ehtiyaclarına uyğun olmalıdır. Mövcud qanunlarımızı hakimlər tətbiq edə bilmirlərsə, onları dərhal dəyişdirməliyik...

Mədəni və sistemli bir dövlət aparatı köhnə qanunlarla işləyə bilməz.

## İnqilab və Türk inqilabları

Türk inqilabı nədir? Bu inqilab... bugünkü dövlətimizin əsrlərdən bəri davam edib gələn köhnə formalarını ortadan qaldıran ən çox inkişaf etmiş quruluş formasıdır.

Bu inqilab nəticəsində millətin öz varlığını davam etdirməsi üçün onun fərdləri arasındakı əlaqənin forma və mahiyyəti dəyişmişdir, yəni millətin fərdləri din və məzhəb bağları əvəzinə türk milləti bağları ilə bir-birilə bağlanmışdır. Millət beynəlmiləl mücadilə sahəsində belə bir prinsipi qəbul etmişdir ki, o, öz həyatını və gücünü yalnız müasir mədəniyyətin yarada biləcəyi elm və digər vasitələrilə təmin edə bilər.

**(davamı növbəti saylarımızda)**